*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 92-101* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.92*

# Postmodernizm və ədəbiyyat: çağdaş nəsrdə intellektual oxucu problemi (*Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında*)

**Səbinə Ağababayeva**
Bakı Slavyan Universiteti
E-mail: sagababayeva@list.ru

**Annotasiya.** Dünyanın ümumi mənzərəsində dəyişikliklərin müşahidə olunduğu XX əsrdən etibarən, postmodernizm cəmiyyəti və mövcud düşüncəni kökündən dəyişmişdir. Postmodern dönəmin başlanması ilə elm, mədəniyyət, ədəbiyyat, tarix, kino, memarlıq və s. kimi sahələr əsaslı dəyişikliklərə məruz qalmışdır. XX əsrin ikinci yarısından etibarən müasir dünya incəsənətinin müxtəlif sahələrində müşahidə olunan postmodernizm reallığın dərkinə yeni perspektiv gətirməklə bədii əsərin ənənəvi funksiyasını, daha geniş mənada bədii ədəbiyyatın estetikasını dəyişmişdir. Bədii ədəbiyyat forma, eləcə də məzmun baxımından tamamilə yeni keyfiyyətlər qazanmışdır.
Məqalədə dünya şöhrətli Latın Amerika yazıçısı Xulio Kortasarın "Xana-xana oyunu" romanı ilə çağdaş postmodern nəsrdə intellektuallıq problemi – fəal, intellektual oxucu konsepti araşdırılmış, "Xana-xana oyunu" romanı intellektual nəsr nümunəsi kontekstində təhlil edilmişdir. Klassik romanın müəyyən edilmiş bütün normalarını alt-üst edən "Xana-xana oyunu" romanı innovativ xüsusiyyətləri baxımından Latın Amerikası ədəbiyyatında yeni səhifənin başlanğıcı kimi qiymətləndirilir. "Xana-xana oyunu" unikal oxu təcrübəsi təklif edən yenilikçi bir romandır. Zəngin problematikası ilə diqqət çəkən roman əsərlə oxucu arasındakı ənənəvi əlaqəyə fərqli prizmadan baxış nümayiş etdirir. "Xana-xana oyunu" romanı ilə Kortasarın fəal oxucu axtarışları yeni Latın Amerikan romanının əsas xüsusiyyətlərindən biri kimi diqqəti cəlb edir.
**Açar sözlər:** modernizm, postmodernizm, müasir nəsr, fəal oxucu, intellektuallıq

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2024; qəbul edilib – 23.09.2024

# Postmodernism and Literature: The Problem of the Intellectual Reader in Contemporary Prose (*Based on Julio Cortázar's Novel Hopscotch*)

**Sabina Aghababayeva**
Baku Slavic University
E-mail: sagababayeva@list.ru

**Abstract.** Since the 20th century, when significant changes were observed in the general picture of the world, postmodernism has radically transformed society and existing modes of thinking. With the beginning of the postmodern era, fields such as science, culture, literature, history, cinema, and architecture have undergone fundamental changes. Since the second half of the 20th century, postmodernism, which has influenced various fields of modern world art, has redefined the traditional function of art and the aesthetics of fiction in a broader sense by introducing a new

perspective on the understanding of reality. Fiction has acquired completely new qualities in terms of both form and content.
This article investigates the problem of intellectuality in contemporary postmodern prose, specifically focusing on the concept of an active, intellectual reader. It examines this concept through the world-famous Latin American writer Julio Cortázar's novel *Hopscotch*, analyzing it as an example of intellectual prose. Overturning all established norms of the classical novel, *Hopscotch* is regarded as a landmark in Latin American literature due to its innovative features. As an avant-garde novel, it offers a unique reading experience. Notable for its rich thematic complexity, the novel presents a different perspective on the traditional relationship between the work and the reader. Cortázar's active engagement with readers in *Hopscotch* stands out as one of the defining characteristics of the new Latin American novel.
**Keywords:** modernism, postmodernism, contemporary prose, active reader, intellectuality

**Article history:** received – 13.09.2024; accepted − 23.09.2024

## Giriş / *Introduction*

Məlum olduğu kimi, bədii ədəbiyyat həyatı, cəmiyyəti, insanları müəyyən sosioloji parametrlərlə əks etdirir. Bu ədəbi əksetdirmədə dil, söz, mədəniyyət, fəlsəfə, tarix və elm ədəbiyyata yaxından köməklik göstərir. Vaxtını başa vurmuş bir tarixi dönəmdən digərinə keçid prosesində cəmiyyətin mədəni-fəlsəfi kodlarının dəyişməsi təbii olaraq bədii ədəbiyyata da öz təsirini göstərir. Modern dövrdən postmodern dövrə keçid prosesində dəyişikliyə məruz qalmış düşüncə və insan tipologiyası, eləcə də gerçəkliyin dərk edilməsindəki müxtəlifliklər yeni dönəm ədəbiyyatının başlıca təsvir obyektinə çevrilir.

## Əsas hissə / *Main part*

İncəsənətin digər sahələrində olduğu kimi, postmodernizm ədəbiyyatda da özünəməxsusluğu ilə seçilir. Əsasən modernizmə münasibətdə şərh olunan, modernizmlə münasibətlərinin – oxşar və fərqli cəhətlərin hansı müstəvidə olması davamlı müzakirə olunan postmodernizm başlanğıc mərhələdə ədəbiyyatda da modern və postmodern elementlərin qarışıqlığı ilə xarakterizə olunurdu. Xüsusilə də, postmodern üslubda yazılmış əsərlərin ilk nümunələrində modernizmin izləri müşahidə olunurdu. Modern, eləcə də postmodern ədəbiyyatda qarmaqarışıq, mürəkkəb, xaotik dünya əsasdır. Xaosun hökm sürdüyü, mürəkkəb, dolaşıq hadisələrin baş verdiyi dünyanın oxucuya çatdırılması üsuluna görə modern və postmodern ədəbiyyat olduqca fərqlidir. Bir parçası, bir zərrəsi olduğu dünyanı insan necə şərh edə bilər? Bu dünyanın içərisində insanın əsas missiyası nədir? – kimi suallara modern ədəbiyyatda cavab axtarılır. Postmodernizmi isə dünya nədir, bu dünyanın içərisində insan nə etməlidir? kimi suallar düşündürür. Başlanğıcdan və sondan məhrum, qarmaqarışıqlıq və xaosun hökm sürdüyü dünyada insan sanki nə edəcəyini bilmir, məqsədsiz şəkildə ora-bura qaçır. Postmodern ədəbiyyatda dünyanın mənalı şərhindən imtina edilir. “.....bir zamanlar çox dəqiq məna daşıyan şeylər yeni kontekstdə ən yaxşı halda cəfəngiyyata çevrilir” [9]. Bu mənada modern ədəbiyyatda epistemoloji, postmodern ədəbiyyatda isə ontoloji xüsusiyyətlərin üstünlük təşkil etdiyini demək olar. “....postmodern ifadəsi epistemologiyada ortaya çıxan radikal bir tənqid, hətta ümumi bir inkar olaraq dəyərləndirilə bilər” [4, s.92]. Modernizmin epistemoloji suallarına cavab tapmaq çətinləşəndə mətndə bir qeyri-müəyyənlik yaranır. Beləliklə də, epistemoloji qeyri-müəyyənlik ontoloji plüralizmə səbəb olur, modern ədəbiyyatdan postmodern ədəbiyyata keçid baş verir. Reallığın dərki mimetizm və didaktikliyə əsaslanan modern ədəbiyyatdan fərqli olaraq, postmodern ədəbiyyat hər cür reallığı rədd edir və gerçəkliyin mövcud

olmadığını inamla müdafiə edir. Postmodernizm gerçəkliyin fərdi sıxışdırmaq məqsədi daşıdığı fikrini irəli sürür. Məhz bu baxımdan reallığı, hər cür doğru yanaşmaları rədd edir, məlumatın dəqiqliyi ilə maraqlanmır, metafizik (mücərrəd, anlaşılmaz, dumanlı) fikirləri ilə diqqəti cəlb edir. "Postmodernizm bu və ya digər dünyagörüşü paradiqmalarını müəyyənləşdirən real hadisə və faktlarla, məlumatlarla deyil, artıq bilinənlərin, işarələnənlərin qalığı ilə, dərk olunmayan, müəyyən olunmayanlarla maraqlanır. Buna görə də rasional düşüncə istiqamətində qneseoloji fəaliyyətin mərkəzi olan dərk edən subyekt "əriyib" "dünyanın siması"nı açır. Bu zaman gerçəklik, dünya vahid sonsuz mətn kimi qəbul edilir" [2]. Beləliklə də, ümumi qəbul edilən reallıq olmadığından mətn müxtəlif semantik çalarlarla simvolik bir oyuna çevrilir. "...Postmodern müəlliflər tez-tez bir ədəbi əsərdə çoxlu mənaların mümkünlüyünü və ya mənanın tamamilə yoxluğunu vurğulayırlar" [12]. Mətn sanki "açıq qapı" rolunu oynayır. Bu rolda mətn dil oyunları və müxtəlif məna çalarları ilə hər bir şərhə açıq olur. Məna sabit olmadığı üçün dil mətni öz oyun meydançasına çevirir. Postmodern ədəbiyyatda mənanın formalaşması və ötürülməsi müəllif hesabına deyil, oxucu hesabına baş verir. Belə ki, dil oyunlarının içərisində oxucu müəllifin oyun yoldaşıdır. "Mətn daxilində postmodern oyunun elementi real / şərti, müəllif / xarakter, mətn yaradıcısı / oxucu, işarələyən / işarələnmiş, ənənəvi / avanqard, öz / yad, gözəl / çirkini əhatə edir" [8, s. 50].

**Postmodernizm ədəbiyyatda: müasir nəsrdə yeni təmayüllər.** Postmodernizm 1960-cı illərdə Nyu-Yorkdakı bütün ədəbi müzakirələrin əsas mövzusu idi. Bu müzakirələrdə postmodernizmdən modern incəsənətin təməl anlamlarını üstələyən yeni bir estetik anlayış kimi bəhs olunurdu. Postmodern estetika sənətlə məişət, gündəlik yaşam arasındakı sərhədləri bir növ yox etdi. Postmodern estetika sənətkarın yaradıcılıq potensialını bir növ şübhə altına alır, sənətin sənətkarın yaradıcılıq imkanları, fitri istedadı, xüsusi keyfiyyətləri ilə yaranmadığı fikrini irəli sürürdü. Hər bir mövzunun daha öncədən işlənməsi təkrarlardan qaçmağın mümkün olmadığını bir daha sübut edir.

Lesli Fidler və İhab Hassan kimi postmodernistlərin sayəsində bu anlam ədəbiyyatşünaslıqda öz yerini tutmağa başlamışdır. Lesli Fidlerin əsas tənqid hədəfi modern ədəbiyyatın elitarlıq prinsipi idi. Tənqidçi ədəbiyyatdakı gerçəklik, formalizm kimi dəyərləri rədd edir və elitar ilə kütləvi mədəniyyət arasındakı sərhədi yox etməyə çalışırdı. Postmodernizmi Qərb dünyasındakı dəyişikliklərin nəticəsi hesab edən İhab Hassan yeni ədəbiyyatın məhz ətrafda baş verənlərə cavab reaksiyası olaraq yarandığını qeyd etmişdir. Yeni ədəbiyyat öz xüsusiyyətləri ilə "anti-ədəbiyyat" kimi xarakterizə olunurdu. Yeni – postmodern ədəbiyyatda insanın hərəkətləri təsadüfi xarakter daşıyır, yadlaşma – özgələşmə həyatın əsas şərti hesab edilir, biliyin nisbiliyi, etik-əxlaqi dəyərlərin ümumiyyətlə mövcud olmadığı göstərilir.

İkinci Dünya müharibəsindən sonrakı 45 ili – 1945-1990-cı illəri əhatə edən Soyuq müharibə dönəmində ədəbiyyat sanki bir boşluq və səssizliklə səciyyələnirdi. Ədəbi qəhrəmanlar cəmiyyətdəki dəyişikliklərin nəticəsi olaraq özünə qapanan və səssizləşən "mən"lər idi. Amerika ədəbiyyatında demək olar ki, bütün bu xüsusiyyətlər müşahidə olunurdu. Söz sənətindəki bu yenilikləri ifadə etmək üçün "metafiction" terminindən istifadə edirdilər. 1960-1970-ci illər Amerika ədəbiyyatında müşahidə olunan yeni meyillər ədəbiyyatşünasları, tənqidçiləri müxtəlif suallarla qarşı-qarşıya qoydu. Ədəbiyyatdakı yeni meyilləri bir sözlə təqdim etmək mümkün olmadığını iddia edirdilər. Dünyanın dəyişən nizamı əvvəlki ədəbi həqiqətləri də özü ilə birlikdə dəyişdirdi. Yazıçılar, tənqidçilər artıq dünyaya ənənəvi materialist və pozitivist baxış nümayiş etdirməkdə çətinlik çəkirdilər. Bu da əsl həqiqətin, əsl gerçəkliyin şübhə altına alınması, hətta bəzi məqamlarda tamamilə rədd edilməsi ilə nəticələnirdi. Ədəbi sahədəki yeni istiqamətlər postmodern dönəmin əsas xüsusiyyətlərini özündə ehtiva edirdi və yeni ədəbiyyatın "postmodern ədəbiyyat" adlandırılması labüd bir hala çevrilmişdi. Bir sözlə, postmodern ədəbiyyat "metafiction" kimi təyin olunan ədəbiyyatın yeni adına çevrildi. "Metafiction" postmodern ədəbiyyatın əsas bədii elementi kimi ənənəvi ədəbiyyatın ardıcıl təhkiyə formasını alt-üst edir. Eyni zamanda bədii mətndəki

zamanın qarışıqlığını, bulanıqlığını təmin edən formal üsuldur. Postmodern ədəbiyyatda zamanın xüsusi inikası müşahidə olunur. Belə ki, bir-biri ilə bağı olmayan bir neçə zaman kəsiyi postmodern əsərlərdə vəhdət təşkil edir. Postmodern diskursda zaman mürəkkəb çoxşaxəli struktur kimi təqdim olunur. Modernist romanın düz xətli zaman anlayışından fərqli olaraq postmodern ədəbiyyatda zaman düz xətli xarakter daşımır, hadisələr ardıcıllıqla irəliləmir. Zaman fərddən kənarda mövcuddur və davamlı deyildir. “Keçmiş və gələcək indiki zamanda birləşir” [7, s.137]. Keçmiş, indiki və gələcək zamanlar bir-birinə elə qarışmış durumdadırlar ki, onları bir-birindən ayırmaq olduqca çətindir. Ümumiyyətlə, xarici dünyanın zaman anlayışı ilə fərdin zaman qavrayışı demək olar ki, bir-birindən fərqlidir. Mürəkkəb hadisələr fərdin şüurunda daha da qəlizləşir. Bu da mətndəki ifadənin daha dolaşıq formalar almasına səbəb olur. Zamanın mahiyyəti və quruluşu ilə bağlı suallara cavab axtaran, onu anlamağa çalışan postmodernistlər şüurla oyunlara əl atırlar ki, bu da mətnin mahiyyətini daha da çətinləşdirir. “...Postmodernizm ədəbiyyatda bədii zaman xaotik, fraqmentar və sıxışdırılmış xarakter daşıyır” [5, s.40]. Keçmişin tabeçiliyində olmasına baxmayaraq zaman postmodern ədəbiyyatda keçmişdən qırılmış, onunla tam bir əlaqəsi, bağı olmayan halda təsəvvür edilir. Zaman öz xronoloji ardıcıllığını itirir. Zamanın dərki qeyri-müəyyənliyə əsaslandığı üçün “hər yerdə və bir anlıq” qavrayışı hakimdir.  Keçmiş zamanla qırıqlıq “əvvəl-sonra” kimi məntiqi ardıcıllıqdan imtinada özünü göstərir. Ənənəvi, klassik əsərlərdə xarici gerçəkliklə tam uyuşan bir hadisə, əhvalat xronoloji ardıcıllıqla əks etdirilir. Postmodern ədəbiyyatda isə bu xronoloji ardıcıllıq izlənmir, “.... bədii mətndə “dünən – bu gün – sabah”, “səbəb – nəticə” əlaqələri sındırılır” [5, s. 40].

Modernizmin “vahid həqiqət” nəzəriyyəsinə qarşı çıxan postmodernizm bədii mətnin əsas mahiyyətini plüralizm və çoxqatlı struktur təşkil etdiyi fikrini ön plana çıxarır. “.....postmodernizm plüralizmə əsaslanan fəlsəfi hərəkat; buna uyğun olaraq postmodernist ədəbiyyat plüralist ifadəyə əsaslanan ədəbi cərəyandır”  [6, s.1309]. Modernizmin böyük əsərlərini postmodernizmdə müxtəlif şərhlərə açıq mətnlər əvəz edir. Müəllif mətnin fiquru kimi sadəcə olaraq mətni necə qurduğunu izah edir. Mətndə əsl həqiqətlər əvəzinə oxucunun tapıb müəyyənləşdirməli olduğu gerçəklər təsvir olunur. Bütün bu təşəbbüslər oxucunu mətnin bir parçasına çevirmək cəhdindən irəli gəlir. Modern ədəbiyyatın səbəb-nəticə əlaqəsi postmodern mətndə fraqmentarlıq, arabir boşluqlar, ani dəyişikliklər kimi özünü göstərir. Qəhrəmanlar hər cür simvolik ölçüdən məhrum “marionet” fiqurlardır. Onlar çaşqın halda hansı dünyada olduqlarını müəyyən edə bilmirlər.

Postmodern elementlərin ədəbiyyatda yüksəlişi ilə paralel olaraq ədəbiyyatda qeyri-müəyyənlik, parçalanma, mərkəzsizləşmə, plüralizm, subyektin ölümü, keçmişə həsrət, rasionalizmin iflası kimi dəyərlər öz əksini tapmağa başlayır. “Postmodernizm “aparıcı mövzular”ı rədd edib, “mini mövzular”a üstünlük verir və genişmiqyaslı, universal, qlobal məsələlərdən daha çox kiçik təcrübələri, lokal olayları əks etdirir. Postmodern “mini-mövzular” adətən situasional, ötəri, gözlənilməz və müvəqqəti olur. Belə mövzular ümumbəşəriliyi, həqiqəti, səbəbi və stabilliyi iddia etmir” [1, s.17]. Ətrafda baş verən xaos ədəbiyyatın əsas təsvir obyektinə çevrilir. Beləliklə, sanki məna axtarışından yorulan ədəbiyyatda qeyri-müəyyənlik, ziddiyyətlər, qarmaqarışıqlıq labüd bir hala çevrilir.

**İntellektual nəsrin fəal – intellektual oxucusu.** Postmodern nəsrdə oxucular öz fəallığı ilə seçilir. Bu üslubda yazılmış əsərlər bir növ məlumatlı, intellektual, peşəkar oxucu kütləsinə xitab edir. Çoxqatlı, polifonik quruluşu ilə seçilən postmodern mətnlərin mənasını anlamaq saatlarla qəliz riyazi məsələni həll etmək, hansısa bir çətin tapmacanın cavabını tapmağa bənzəyir. Bu baxımdan oxucu kifayət qədər peşəkar, eyni zamanda yüksək dərəcədə məlumatlı olmalıdır. “Müasir postmodern mətnlərin təhlili göstərdi ki, onlar dünya klassik ədəbiyyatının bütün kontekstindən eyhamlar və sitatlar oyunu ilə xarakterizə olunur, “səriştəli” oxucunun dərketmə  sisteminə “hazır” mədəniyyət mətnləri ilə çatdırılır” [11, s.37]. Postmodern ədəbiyyatda oxucu əsərin əsas bədii elementlərindəndir. Reallığın dəyişən dərki ilə əlaqədar olaraq postmodern yazar daha fəal, daha

məlumatlı oxucu üçün uydurma, fantastik elementlərdən bol-bol istifadə edir. Postmodern əsərlərin peşəkar oxucuları ədəbiyyatı oyun, uydurma kimi qəbul etməli, janrdan çox mətnin varlığına önəm verməlidirlər. Postmodernistlərin klassik oxucudan fərqli, daha fəal oxucuya xitabı onların bir növ oxucu ilə ünsiyyət qurmaq istəyinin, ehtiyacının nəticəsidir. Bir sözlə, postmodernizmin çoxqatlı, müxtəlif oxunuşlara açıq olan mətn strukturunu fəal, intellektual oxucu anlaya bilər.

**Xulio Kortasar "Xana-xana oyunu" romanı: oxucu – mətn/oxucu – müəllif münasibətləri yeni kontekstdə.** Dünya şöhrətli argentinalı yazıçı Xulio Kortasarın (1914-1984) yaradıcılığında dövrün sosial, psixoloji, etik problemləri aydın şəkildə öz əksini tapmışdır. Xulio Kortasar Xorxe Luis Borxes yaradıcılığının vurğunu olmuş, Borxesi öz ustadı adlandırmışdır. 1940-cı illərin əvvəllərindən Argentina jurnallarında hekayələrini dərc etdirməyə başlayan Kortasar öz kumirini (Borxesi) qəsdən təqlid edirdi. Bununla belə Kortasar hadisə və qəhrəmanlarını orijinal şəkildə təqdim etməyi bacarmışdır. Kortasar üçün qəhrəmanının fantastik, qeyri-adi vəziyyətlə qarşılaşanda onu necə dərk edəcəyi, qavrayacağı o qədər də əhəmiyyət kəsb etmir, önəmli olan izaholunmaz bir şeylə qarşılaşanda onun keçirdiyi hisslərdir. Fantastik situasiya personajların şüurunun dərinliklərində gizlənənləri aşkar edən, onların gücünü yoxlayan vasitələrdən biridir. Buna görə də Kortasar qəhrəmanları üçün həqiqətin dərinliklərinə enmək, görünməz olanları aşkara çıxarmaq fantastiki dərk etməkdən daha vacibdir.

Xulio Kortasar 1960-cı illərdə Latın Amerikası ədəbiyyatında baş verən dəyişikliklərdə, yenilənmədə yazıçı ilə bərabər oxucunun da eyni hüquqa malik olduğu fikrini irəli sürmüşdür. Belə ki, Kortasar hesab edirdi ki, "bum" dövründə yeni üslub, yeni istiqamət qazanmış çağdaş Latın Amerikası romanı yazıçı mövqeyi ilə yanaşı, oxucunun da baxışı ilə ədəbi üslubda baş verən dəyişikliklərin nəticəsidir. Kortasar "Xana-xana oyunu" romanı ilə əsərlə oxucu arasındakı əlaqənin tam yeni, fərqli baxış bucağından təsvirinə nail olmuşdur. Oxucunun yazıçı ilə bərabər hüquqa malik olması, fəal oxucunun davamlı axtarışları çağdaş Latın Amerika romanının ilkin, bununla yanaşı ən əsas xüsusiyyətləridir. Bütün yaradıcılığı boyu bu amili əsas götürən Kortasar artıq ilk romanı olan "Uduşlar"da (1960) passiv, yalnız əsərin sonunda baş verənlərlə maraqlanan oxucuları tənqid edirdi.

Xulio Kortasarın 1963-cü ildə işıq üzü görən "Xana-xana oyunu" romanını Latın Amerikası ədəbiyyatında üslub və məzmun baxımından postmodernizmin təcəssümü kimi dəyərləndirmək olar. "Roman müxtəlif zümrələri təbliğ edən oxucular arasında uzunmüddətli və böyük uğur qazanmışdır" [3, s. 8]. Qeyd etmək lazımdır ki, Xulio Kortasarın nəinki "Xana-xana oyunu" romanı, eləcə də digər əsərləri işıq üzü görəndən dərhal sonra bütün Avropa dillərinə tərcümə olunmuşdur. Roman Latın Amerikan fəlsəfi düşüncəsini narahat edən bir sıra problemlərin – azadlıq ideyaları və milli kimlik problemini dolğunluğu ilə özündə əks etdirir.

Dünyanın müxtəlif dillərinə tərcümə olunan "Xana-xana oyunu" romanı Latın Amerikan postmodern nəsrinin zirvəsi hesab olunur. Klassik romanın müəyyən edilmiş bütün normalarını alt-üst edən "Xana-xana oyunu" romanı innovativ xüsusiyyətləri baxımından Latın Amerikası ədəbiyyatında yeni səhifənin başlanğıcı kimi qiymətləndirilir. Zəngin problematikası ilə diqqət çəkən roman əsərlə oxucu arasındakı ənənəvi əlaqəyə fərqli prizmadan baxış nümayiş etdirir. "Xana-xana oyunu" romanı ilə Kortasarın fəal oxucu axtarışları yeni Latın Amerikan romanının əsas xüsusiyyətlərindən biri kimi diqqəti cəlb edir. Ümumiyyətlə, Kortasarın əsərləri valehediciliyi, eyni zamanda mürəkkəbliyi ilə diqqəti cəlb edir, onları oxumaq və anlamaq o qədər də asan deyildir. Bu, yazıçının əsərlərində qəsdən yaratdığı paradoksdur. Hər zaman paradoks yolunu seçən Kortasar dolayı, çıxılmaz, bununla belə məqsədə çatdıran yolun çətinlikləri barədə oxucunu açıq şəkildə xəbərdar edirdi.

"Xana-xana oyunu" romanının dinamik, hərəkətli quruluşu onun semantikasını müxtəlif üsullarla açmağa imkan verən oxuma ardıcıllığı təqdim edir. Müxtəlif oxuma ardıcıllığı mətnin semantikasının da dəyişməsinə səbəb olur. Mətnin mənasının müxtəlif oxunuşlarda dəyişməsi onun

şərhi üçün mühüm əhəmiyyət kəsb edən fəsillərin yerinin dəyişməsi ilə bağlıdır. Əgər romanı adi, ənənəvi qaydada oxumağa başlasaq Sibillanı axtaran, onunla keçmiş günlərini xatırlayan qəhrəmanın hissləri, düşüncələri ilə qarşılaşırıq: “Görəsən, Sibillaya rast gələcəyəm?” [3, s.13] Bələdçi – cədvələ əsasən, romanı 73-cü fəsildən etibarən oxumağa başladığımız zaman da yenə də qarşımızda sual qoyulur: “Hə, ancaq kim bizi bu səssiz alovdan qoruyacaq, axşamüstü Yuşett küçəsində zamanın sürtüb ağartdığı giriş qapılarından və balaca dəhlizlərdən qopan rəngsiz alovdan, daşları yalayan və qapı oyuqlarında pusquda duran simasız alovdan, nə etməli, onun vurduğu sağalmayan, zamana və xatirələrə qarışaraq, bizə yapışan və bizi burada saxlayan, hər şeyə suvaşaraq içimizdə yaşayan, bizi daşa döndərənədək içimizdə acı-acı və şirin-şirin közərən şirin yanıq yerlərini necə sağaltmalı?” [3, s.376-377] Romanı 1-ci fəsildən, eləcə də 73-cü fəsildən oxumağa başlasaq daxilən iztirab çəkən qəhrəmanla qarşılaşırıq. Bu daxili iztirablar hər fəsildə müxtəlif formalarda öz əksini tapmışdır.

Romanın əsas hissəsi 1-56 fəsilləri əhatə edir. “Birinci üsulu oxuyanların narahatlığı daha az olacaq: onlar üçün hər şey 56-cı fəsil və Oliveyranın pəncərədən tullanaraq ölümü ilə bitəcək” [10]. Bu hissəni adi qaydada – fəsil-fəsil oxumaq, yaxud da əlavə fəsillərin – 57-155-ci fəsillərin köməyi ilə də tamamlamaq mümkündür. Əsərin əvvəlindəki bələdçi – cədvəlin ilk cümləsi – “Bu kitab müəyyən mənada çox, əsas etibarilə iki kitabdır. Oxucuya iki mümkün olandan birini seçmək hüququ verilir” – oxucunun əsəri hansı üsulla oxumağa başlamaqda sərbəst olduğunu aydın göstərir. “Amma romanın fəsillərini ardıcıllıqla, yəni birinci şəkildə oxumağa başlasaq, onda heç bir ipucu əldə etməyəcəyik və yalnız lirik intonasiyaya köklənəcəyik, çünki Oliveyranın Sibilla üçün darıxdığı birinci fəsil bizim üçün giriş sözü olacaq” [10]. Əsərin ideoloji konsepsiyasını, ideya-bədii xüsusiyyətlərini incəliklərinə qədər başa düşmək üçün onun hər iki hissəsini “xana-xana” uşaq oyununun qaydalarına əsasən oxumaq lazımdır. Oxucu müəllif təxəyyülünün “şıltaq” gedişatını açmağa çalışaraq oyunun qaydalarına əməl etməyə dəvət olunur. Yazıçı qəhrəmanların həyatının müxtəlif mərhələlərindən və digər hadisələrdən bəhs edən “vacib olmayan fəsillər”, yaxud da oxucunun istəyi əsasında oxunması nəzərdə tutulan fəsilləri əsas fəsillərə daxil etmək üçün xüsusi kod verir. Sanki Kortasar bu qeyri-adi üsulla oxucunu cəlb etmək istəyir. Əsərin oxunma sxemindən asılı olaraq epizoddan epizoda keçidlər, hadisələrin inkişaf məntiqi, hətta əsərin finalı tamamilə fərqli, gözlənilməz ola bilər. Fəsildən-fəslə, xarakterdən-xarakterə tullanaraq baş verən hadisələri oxumaq həm çətin, həm də olduqca maraqlıdır.

Davamlı olaraq fəal oxucu axtarışında olan, passiv oxucunu qəbul edə bilməyən Kortasar köhnəlmiş xətti oxu paradiqmasından çıxa bilməyən oxuculara ürək ağrısı ilə yanaşır. Demək olar ki, bu səbəbdən də Xulio Kortasar “Xana-xana oyunu” romanının birinci oxunuşunu ənənəvi qaydada oxumağa icazə verir. Birinci üsul oxunuşda 56-cı fəslin sonundakı üç ulduz işarəsindən sonrakı hissələri oxucu yazıçının da qeyd etdiyi kimi, “heç bir vicdan əzabı çəkmədən” oxumaya bilər. Lakin bununla yanaşı, Kortasar oxucunun çox şey itirəcəyinə də eyham vurur. 56-cı fəsildə başa çatan birinci kitabdan sonra yazıçının da qeyd etdiyi kimi, “heç bir vicdan əzabı çəkmədən” sonrakı fəsilləri oxumasaq maraqlıdır ki, nəyi itirərik? Həqiqətən də bir natamamlıq, boşluq hiss olunarmı? Romanla bağlı aparılan tədqiqatların əksəriyyətində də vurğulandığı kimi, oxucunun itirəcəyi ən əsas məqam qeyri-adi fikirləri, fəlsəfi görüşləri olan yazıçı Morelli ilə daha yaxından tanış olmaq imkanından məhrum olmaqdır. Belə ki, oxucu Morelli haqqında heç bir şey öyrənə bilməyəcək. Onu da qeyd etməliyik ki, ilk dəfə olaraq əsərin dördüncü fəslində Morellinin adı çəkilir. Sibilla “.... onların haqqında bu qədər danışdıqları və valeh olduqları Morellinin niyə öz kitablarından içərisində mikro və makroaləmin özünü məhv edən görüntü şəklində qovuşduğu şüşə şar düzəltmək istədiyini anlamaq istəyirdi” [3, s.43]. (Onlar deyəndə Oliveyra və Etyen nəzərdə tutulur). Beləliklə də aydın olur ki, birinci kitabda yalnız qısa şəkildə yazıçı Oliveyra və Etyen üçün “valeh olduqları Morelli” ifadəsini işlətmişdir. İlk olaraq Oliveyra və Etyenin valeh olduqları Morelli kimi tanıdığımız yazıçı barədə əsərin ikinci oxunuşu zamanı daha ətraflı məlumat əldə

edirik. Təbii ki, oxucu yazıçının təklif etdiyi oxuma sxeminə əməl etməsə Etyen və Oliveyranın valeh olduqları Morellinin kim olduğu barədə heç bir məlumat əldə edə bilməyəcəklər. "İlanlar klubu"nun üzvləri dili tənqid edən, o qədər də oxucu kütləsi olmayan, uğur qazana bilməmiş qoca yazıçı Morellinin arxivini təsadüf nəticəsində əldə edirlər. Morellinin mülahizə və qeydləri klub üzvlərinə müzakirə üçün zəngin mövzu verir.

Xulio Kortasar "Xana-xana oyunu" romanı ilə ənənəvi yazı texnikasını pozduğu, darmadağın etdiyi kimi, mütaliəyə də tamamilə yeni ruh gətirmişdir. Belə ki, ənənəvi ədəbiyyatda, klassik romanlarda oxucu heç bir əziyyət çəkmədən ardıcıllıqla əsəri oxuyur, onun mənasını, mahiyyətini tam dərk edə bilirdi. "Xana-xana oyunu" romanında isə yaradıcılıq prosesində yazıçı ilə bərabər hüquqa malik fəal, şüurlu oxucu iştirak edir. Müəllif ənənəvi romanlardakı kimi hadisələri asanlıqla, ardıcıllıqla oxucuya təqdim etmir. Yazıçı bütün bunları Morelli obrazı vasitəsilə bizə çatdırır: "....Morelli bir şey istəyir – oxucunun təfəkkür vərdişlərini dağıtmaq"; "... Morelli incəsənət haqqında özünəməxsus təsəvvürləri olan sənətkardır və bu təsəvvür əsas etibarilə ənənəvi formaları yıxmaqdan ibarətdir. Adətən, bütün əsl sənətkarlar bu cür olurlar. Məsələn, onun silsilə romanlardan zəhləsi gedir. Əvvəldən axıradək asanca oxunan kitabdan, sözəbaxan uşaq kimi sakit kitabdan" [3, s.419]. Beləliklə, Kortasar fəal, şüurlu, intellektual oxucu ilə bağlı düşüncələrini Morelli obrazı vasitəsilə açıq-aydın şəkildə əks etdirir.

Qeyd etmək lazımdır ki, Kortasar romanın mürəkkəb kompozisiyasını, adət edilən, ənənəvi oxu vərdişlərini darmadağın etməsini belə izah edirdi: "oxucunun müəyyən həqiqətləri dərk etməsi üçün ilk növbədə əsərin ənənəvi oxunma sxemini alt-üst etmək lazım idi" [13]. Oxucu – müəllif münasibətinə tamamilə yeni baxış nümayiş etdirən Xulio Kortasar oxucunun müəllif nəzarətindən çıxıb özbaşına hərəkət etməli olduğunu çatdırırdı. "Xana-xana oyunu" romanının ikinci oxunma sxemi bu fikrimizə ən gözəl nümunədir. Passiv oxucunu heç bir halda qəbul etməyən Kortasar "Xana-xana oyunu" romanı ilə bu istəyinə nail olur. Romanda Kortasarın oxucu ilə oyunu yalnız fəsillərin ardıcıllığının pozulması ilə məhdudlaşmır. Romanın ikinci oxunma üsulu bunun ən gözəl sübutudur. Belə ki, yazıçının göstərişlərinə əməl edən oxucu özünü çıxılmaz oyunun içində tapır: əsərin sonunda 131-ci fəsildən 58-ci fəslə, 58-dən isə yenidən 131-ci fəslə qayıtmaq göstərilir. Bu sonsuzluq oxucunun çıxış nöqtəsini tapmağın çətin olduğu bir oyunun içərisində olduğunun bariz nümunəsidir. "Xana-xana oyunu" romanının ikinci oxunma qaydası oxucuda çaşqınlıq yaradır. Ənənəvi ardıcıllığın qarmaqarışıq sıralanma ilə əvəz olunduğu ikinci oxunma sxemində hadisələrin baş verdiyi zamanı – təhkiyə zamanını təsəvvürdə canlandırmaq adi oxucu üçün o qədər də asan deyildir. Hətta əsərdən zövq almasını belə çətinləşdirir. Məhz ikinci oxunma sxemi müəllifin oxucu ilə oynadığı "xana-xana oyunu"dur.

Romanda diqqəti cəlb edən məqamlardan biri də Oliveyranın axtarışlarının nəticəsiz qalmasıdır. Kortasar faktiki olaraq oxucunu labirintə salır. Heç bir nəticə və həll yolu təklif etməyən roman yalnız ehtimal və təxminlərlə oxunur. Ümumiyyətlə, Oliveyranın sonu tam şəkildə aydın deyil. Kortasar əsas qəhrəmanının sonu ilə bağlı oxucuya iki mümkün variant təklif edir: qəhrəmanın intiharı, yaxud da onun dəlixanada bütün çılğınlıqlardan xilas olaraq, sağalaraq yaşamağa davam etməsi. Sanki Kortasar oxucunun düşüncə və təxəyyülündə təlatüm yaradaraq baş qəhrəmanının qəribəliklərlə dolu hərəkətlərinin daxili məntiqini açmağa təşviq edir. Ümumiyyətlə, "Xana-xana oyunu" romanını Xulio Kortasarın erkən axtarış və düşüncələrinin nəticəsi, yetkinliyinin başlanğıc nöqtəsi kimi dəyərləndirmək olar. Postmodern fəlsəfənin əsas şüarlarından olan – "konkret deyiləcək bir şey yoxdur" tezisi postmodernizmin ən mühüm xüsusiyyətlərini özündə əks etdirən "Xana-xana oyunu" romanında aydın şəkildə öz əksini tapır. Mürəkkəb ekzistensial dilemmalar, insanın məna axtarışları, daxili təlatümləri, nəticəsi olmayan davamlı axtarışlar romanın əsasını təşkil edir.

Ümumiyyətlə, "Xana-xana oyunu" eksperimental romandır. Kortasar romanın hər fəslini fərqli üslubda yazmış və sözlərlə olduğu kimi oxucu ilə də oyuncaq kimi oynayır. Çaşqınlıq,

qarışıqlıq içinə düşən oxucu səhifələrə hakim olmağa çalışarkən, həmçinin mövzunu da anlamalıdır. Hər oyunda öz növbəsini səbirsizliklə gözləyən uşaq kimi oxucu da bu kitabda oyunçuya çevrilir. Oxucu kitabı deyil, sanki kitab oxucunu oxuyur. Oxucu mütləq diqqətli olmalıdır. Romanı oxuyub başa düşmək çətindir. Eləcə də dil vurğusu, fəlsəfi qənaətlər, zəngin söz ehtiyatı və fırtınalı düşüncə çaşqınlığı bədii ədəbiyyatda bir-biri ilə iç-içədir. Bu əsər oyun oynamağı sevənlər üçün əsl mənəvi zövq mənbəyidir.

Xüsusilə qeyd etmək lazımdır ki, Kortasar xana-xana oyununu yalnızca oxuma tərzi baxımından oynamır, fikirlər və hadisələr arasında da xana-xana oyunu var. Bir sözlə, Kortasar oxucu ilə oyun oynayır. Bu kitabı oxumaq, onu təhlil etmək üçün xüsusi təhlil qabiliyyəti lazımdır. Romanda fikir və ideyalar sanki havada uçur. Tələsməmək, anlamaq, mənanı tuta bilmək lazımdır. Çünki, müəllif nə demək istədiyini aydın şəkildə birbaşa demir, oxucu müəllifin fikrini anlamaq üçün səy göstərməli, mübarizə aparmalıdır. "Roman başdan-başa elmi-fəlsəfi, intellektual materialla doludur (Mənim bütün əsərlərim kimi "Xana-xana oyunu"nun xətası da onun hiperintellektuallığındadır)" [3, s.13].

Beləliklə, Xulio Kortasarın erkən axtarış və düşüncələrinin nəticəsi, yetkinliyinin başlanğıc nöqtəsi kimi dəyərləndirilən "Xana-xana oyunu" romanı ənənəvi roman anlayışını, klassik romanın süjet xəttini tamamilə alt-üst edir. Kortasarın eksperimental nəsrinin ən mükəmməl nümunələrindən olan "Xana-xana oyunu" unikal oxu təcrübəsi təklif edən yenilikçi bir romandır. Magik realizm, absurdizm və digər avanqard-modernist cərəyanların üsullarını özündə cəmləşdirən "Xana-xana oyunu" romanı polifonik, polisemantik mətndir.

Bir sözlə, Kortasar "Xana-xana oyunu" romanı ilə ənənəvi təhkiyə formalarına və ədəbi priyomlara istehza edir.

## Nəticə / *Conclusion*

Postmodernizmin ədəbiyyatda təzahüründən sonra çağdaş nəsr məzmun və forma baxımından tamamilə yeni keyfiyyətlər qazanmışdır. Müasir nəsrdəki dəyişikliklər fonunda oxucuya da münasibət dəyişmiş, intellektual oxucu ədəbiyyatın əsas fiquruna çevrilmişdir. Belə ki, postmodern ədəbiyyatın ənənəvi, klassik ədəbiyyatın sərhədlərini alt-üst edən mətnlərini anlamaq həqiqətən də oxucudan yüksək hazırlıq, peşəkarlıq tələb edir. İlk baxışda xaotik, dağınıq təsir bağışlayan postmodern ədəbiyyat nümunələri təhlil edildikcə bu mətnlərdəki mənasızlığın özündə bir məna, dağınıqlığın özündə bir nizamın olduğu diqqəti cəlb edir. "Mənalı qeyri-müəyyənlik", "nizamlı dağınıqlıq" – məhz bu incə məqamı həvəskar yox, peşəkar oxucu müəyyən edə bilir. Bu baxımdan postmodern ədəbiyyatın həvəskar yox, peşəkar, intellektual oxucuya yönəldiyini əminliklə vurğulamaq olar. Məqalədə qoyulan problem kontekstində təhlil olunan "Xana-xana oyunu" romanı müasir ədəbiyyatda intellektual oxucu problemini dolğunluğu ilə özündə əks etdirir. Xulio Kortasarın "Xana-xana oyunu" romanı klassik roman, ənənəvi oxu strategiyasını dağıdaraq oxucunu fəsillər arasında labirintə salır. "Xana-xana oyunu" romanı ilə Kortasar ənənəvi romanın sərhədlərini aşaraq müasir insanın dünyagörüşünə, düşüncə tərzinə uyğun əsər yaratmağa müvəffəq olur.

## Ədəbiyyat / *References*


1. Çağdaş dünya ədəbiyyatı. Elmi-kulturoloji publisistika. Ədəbi-poetik, kulturoloji-kreativ tərcümə məqalələri e-Antologiyası: [Elektron resurs] / Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), ; YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2013. Elektron Kitab N 05 (157 – 2013). – 434 s.
2. Əsədova, A.İ. Postmodernizm – ədəbiyyatlaşan dünya: [Elektron resurs] / –URL: // https://525.az/news/11706-postmodernizm-edebiyyatlasan-dunya

3. Kortasar, X. Seçilmiş əsərləri / X.Kortasar. – Bakı: Şərq-Qərb, – 2010. – 592 s.
4. Şaylan, G. Postmodernizm / G.Şaylan, tərc.ed., Gülnar Əhməd. – Bakı: Alatoran, – 2017. – 218 s.
5. Şərifova, S. Çağdaş Azərbaycan postmodern romanı / S.Şərifova. – Bakı: Elm və təhsil, – 2015, – 104 s.
6. Özaltıok, B.A. Postmodernizmin sınırları ve postmodernist bir tema olarak komplo teorileri // – Türkiye: Akademik Dil ve Edebiyat Dergisi, – 2021. № 5 (2), – s. 1294-1313.
7. Özsevgeç, Y. Postmodernizm üzerine // – Uluslararası Sosyal Araşdırmalar Dergisi / The Journal of İnternational Social Research, – 2017. № 54, – s. 133-142.
8. Блинова. М.П. Поморенко. И.Н. Языковая игра в постмодернистском дискурсе // “Культурная жизнь Юга России”, – 2012. № 2 (45), – с. 49-51.
9. Бутенко, И.А. Постмодернизм как реальность, Данная нам в ощущениях: [Электронный ресурс] / – URL: // http://ecsocman.hse.ru/data/088/689/1231/001.BOUTENKO.pdf
10. Краснящих, А. Читаем «Игру в классики». Хулио Кортасар и 60-летие литературного постмодернизма: [Электронный ресурс] / – URL: // https://www.ng.ru/ng_exlibris/2021-06-02/14_1080_game.html
11. Лучинская, Е.Н. Язык культуры в дискурсе постмодерна // Вестн. Сев. (Арктич.) федер. ун-та. Сер.: Гуманит. и соц. науки. 2020. № 2, – с. 34–42.
12. Difference between Modernism and Postmodernism in literature: [Electronic resource] / – URL://https://lafayettefirefighters.com/tr/difference-between-modernism-and-postmodernism-in-literature
Serrano, J.S. “A fondo: Julio Cortázar” *(müsahibə)* [Recurso electrónico] / – URL: // https://www.rtve.es/play/videos/a-fondo/julio-cortazar/1051583/

## Постмодернизм и литература: проблема интеллектуального читателя в современной прозе (на основе романа Хулио Кортасара «Игра в классики»)

**Сабина Агабабаева**
Бакинский славянский университет
E-mail: sagababayeva@list.ru

**Резюме.** Начиная с XX века, когда начали наблюдаться изменения в общей картине мира, постмодернизм коренным образом изменил общество и существующее мышление. С наступлением постмодернизма такие области, как наука, культура, литература, история, кино, архитектура и др., подверглись значительным трансформациям. Начиная с второй половины XX века постмодернизм, наблюдаемый в различных областях современного мирового искусства, предложил новую перспективу в осмыслении реальности, изменив традиционные функции художественного произведения, а в более широком смысле — эстетику художественной литературы. Художественная литература приобрела совершенно новые качества как с точки зрения формы, так и содержания.
В статье исследуется проблема интеллектуальности в современной постмодернистской прозе на примере романа всемирно известного латиноамериканского писателя Хулио Кортасара «Игра в классики», а также анализируется концепция активного, интеллектуального читателя. Роман «Игра в классики», который нарушает все установленные нормы

классического романа, оценивается как начало новой главы в латиноамериканской литературе благодаря своим инновационным характеристикам. Этот роман является новаторским произведением, предлагающим уникальный читательский опыт. Своей богатой проблематикой он привлекает внимание и демонстрирует новый взгляд на традиционные отношения между произведением и читателем. Поиск активного читателя, представленный Кортасаром в романе «Игра в классики», становится одной из ключевых характеристик нового латиноамериканского романа.

**Ключевые слова**: модернизм, постмодернизм, современная проза, активный читатель, интеллектуальность